*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Potika.izm, 2024, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 6-12* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-2926.2024.2.6*

# Sentimentalizm – ədəbi cərəyan olaraq

***(Unudulmaz Hüseyn Həşimlinin xatirəsinə)***

**İsa Həbibbəyli**
Akademik
AMEA-nın prezidenti
E-mail: isa.habibbeyli@science.az

**Annotasiya.** Məqalədə XX əsrin əvvəllərində Azərbaycanda mövcud olan ədəbi cərəyanlardan biri olan – sentimentalizm cərəyanından bəhs olunur. Belə ki, uzun zaman bu axın müstəqil ədəbi cərəyan olaraq deyil, romantizm ədəbi cərəyanı daxilində üslubi istiqamətlərdən biri kimi qələmə verilmişdir. Fikrimcə, Azərbaycan ədəbiyyatında sentimentalizm ədəbi cərəyanının yaranmasını 1906-cı ildən etibarən bir-birlərinə çox yaxın olan romantizm və sentimentalizmi təmsil edən yazıçı və şairlər fərqli yollarla getmələrindən sonra hesablamaq lazımdır. Bu dövrə qədər müxtəlif əsrlərdə ədəbiyyatımızda meydana çıxmış sentimental ruhlu bədii əsərlər isə sentimentalizm ədəbi cərəyanının formalaşmasına şərait yaradan mənbələr, axtarışlar, ənənələr funksiyasını yerinə yetirmişdir.
Azərbaycan şifahi xalq ədəbiyyatında və orta əsr klassik poeziyamızda müraciət olunan buta və məktub motivləri sentimentalizmin ilkin ədəbi qaynaqları hesab oluna bilər.
Azərbaycan ədəbiyyatında Abdulla bəy Divanbəyoğlu (1883-1936), İbrahim bəy Musabəyov (1880-1942), Əli Səbri Qasımov (1892-1983), Rza Zaki Lətifbəyov, Ələkbər Qərib Abbasov (1893 (1894)-?), Ağababa Yusifzadə (1886-1938), Nemət Bəsir (1889-1943), Bağır Cabbarzadə, Səkinə xanım Axundzadə (1865-1927), Umgülsüm (1900-1944) və başqaları sentimentalizm ədəbi cərəyanını təmsil edirlər.
**Açar sözlər**: Azərbaycan ədəbiyyatı, sentimentalizm, ədəbi cərəyan, yazıçı və şairlər

**Məqalə tarixçəsi:** göndərilib – 25.09.2024; qəbul edilib – 04.10.2024

# Sentimentalism as a literary movement

**(*In memory of the unforgettable Huseyn Hashimli*)**

**Isa Habibbeyli**
Academician
The President of the ANAS
E-mail: isa.habibbeyli@science.az

**Abstract.** In the article is dealt with the one of the literary movements existing in Azerbaijan – sentimentalism. For a long time, this movement was presented not as an independent literary movement, but as one of the stylistic directions within the framework of the literary movement of romanticism. In my opinion, it is necessary to consider that the emergence of the sentimentalism

movement in Azerbaijani literature began in 1906, after writers and poets representing Romanticism and Sentimentalism went their separate ways. Until this period, the sentimental works that emerged in our literature in various centuries performed the functions of sources, researches and traditions that paved the way for the formation of the literary movement of sentimentalism.
The motives of buta and letter in Azerbaijani Oral Folk Literature and our medieval classical poetry can be considered the primary literary sources of sentimentalism.
In Azerbaijani literature Abdulla bey Divanbeyoglu (1883-1936), Ibrahim bey Musabeyov (1880-1942), Ali Sabri Gasimov (1892-1983), Rza Zaki Latifbeyov, Alakber Garib Abbasov (1893-(1894)-?), Aghababa Yusifzade (1886-1938), Nemat Basir (1889-1943), Bagir Jabbarzade, Sekine khanim Akhundzade (1865-1927),Umgulsum (1900-1944) and others represented the literary movement of sentimentalism.
**Keywords:**Azerbaijani literature, sentimentalism, literary movement, writers and poets

**Article history:** received – 25.09.2024; accepted − 04.10.2024

## Giriş / *Introduction*

XX əsrin əvvəllərində Azərbaycanda fəaliyyət göstərmiş ədəbi cərəyanlardan biri də sentimentalizm ədəbi cərəyanıdır. Uzun zaman bu axın müstəqil ədəbi cərəyan olaraq deyil, romantizm ədəbi cərəyanı daxilində üslubi istiqamətlərdən biri kimi qələmə verilmişdir. Doğrudan da Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanını təmsil edən yazıçı və şairlərdən bir çoxu bədii yaradıcılığa sentimental hisslərin bədii ifadəsi ilə başlamışlar. Abbas Səhhətin 1905-ci ildə yazdığı "Təzə şeir necə olmalıdır" məqaləsindəki aşağıdakı fikirlər onun təmsil edildiyi romantizm ədəbi cərəyanının deyil, sentimentalizmin xüsusiyyətlərini ifadə edir: "Yazı yazdığımız vaxt hər şeydən müqəddəs hissiyyata tabe olmaq gərək... bəs bu surətdə hissiyyatı bilmək lazımdır. Hissiyyat iki növdür. Cəli və təbii. Hissiyyati-cəliyyənin (saxta, uydurma hissiyyatın – İ.H.) hər kəsə təsiri ola bilməz. Hissiyyati-təbiyyədir ki, başqasına təsir edən, yazılmış şeirin məzmunları bir lövheyi-nəqqaş kimi tamam nükat (nöqtəsinə qədər – İ.H.) və dəqiqi-mətləbi bəyana gətirər" [1].

Məhəmməd Hadi də bədii yaradıcılığının başlanğıcında ədəbiyyatda "hissiyyati-təbii"nin zəruriliyini nəzərə çatdıraraq yazmışdır: "Əlhasil, məsləki müzur (zərərli – İ.H.) olmayıb, övladi-vətənə səlah (sülh, asayiş – İ.H.) və nicat şahrahını (yolunu – İ.H.) göstərən cəraid və mətbuat vətən və millətin, əlhəqq ki, xadimi-həqiqisi, tərcümani-hissiyyatıdır" [10].

## Əsas hissə / *Main part*

Ədəbiyyat nəzəriyyəçiləri rus ədəbiyyatında da "sentimentalizmin bir çox hallarda romantizmi qabaqladığını" [13, s.235] müşahidə etmişlər. Buna uyğun olaraq Azərbaycan romantiklərinin başlanğıc mərhələdə özlərinin hissiyyata üstünlük vermələrini nəzərə çatdırmaları ilk növbədə onların ədəbiyyatda realist yazıçı və şairlər kimi düşünmədiklərini, fərqli baxışlara malik olmaqlarını bəyan etmək üçün irəli sürdükləri mülahizələrdir. Onlar bəlkə də "hissi-təbiyyə" dedikdə, yalnız hissləri deyil, romantizm üçün zəruri olan xəyalları da bu ad altında nəzərdə tutmuşlar. Çünki ədəbiyyatdan xəyal özü də hisslərdən qanadlanan düşüncələrin bədii ifadəsidir. Lakin əsas məsələ ondan ibarətdir ki, Abbas Səhhətin 1905-ci ildə "Təzə şeir necə olmalıdır" məqaləsini yazıb, ədəbiyyatda "hissiyyati-təbiyyə" prinsipini irəli sürdükdə, yaxud Məhəmməd Hadi ədəbiyyatının "tərcümani-hissiyyat" olduğunu bəyan etdikdə, hələ onların arzu etdikləri yeni romantik ədəbiyyat haqqında təsəvvürlər yenicə formalaşmaqda idi. Azərbaycan ədəbiyyatında 1906-cı ildə Əli bəy Hüseynzadənin redaktorluğu ilə nəşr edilən "Füyuzat" jurnalı meydana çıxdıqdan və xüsusən, həmin

jurnalın 1 noyabr 1906-cı il tarixli ilk sayında baş redaktorun "Həyat" və meyli "Füyuzat" adlı məqalə ilə romantizmin xüsusiyyətlərini bəyan etdikdən sonra ədəbiyyatda romantiklərlə sentimentalistlərin yolları ayrılmağa başlamışdır. Əli bəy Hüseynzadənin romantizmin estetik prinsipləri üçün zəruri hesab edildiyi "səadəti-mənəviyyə"ni təsvir və tərənnüm etmək yolunu seçənlər romantik ədəbiyyat xəttini, "hissiyyati-təbii" üsulunu əsas kimi qəbul edənlər isə sentimentalizm yolunu davam etdirmişlər. Beləliklə, hələ 1906-cı ildən etibarən bir-birlərinə çox yaxın olan romantizm və sentimentalizmi təmsil edən yazıçı və şairlər fərqli yollarla getməli olmuşlar. Fikrimcə, Azərbaycan ədəbiyyatında sentimentalizm ədəbi cərəyanının yaranmasını da həmin dövrdən hesablamaq lazımdır. Bu dövrə qədər müxtəlif əsrlərdə ədəbiyyatımızda meydana çıxmış sentimental ruhlu bədii əsərlər isə sentimentalizm ədəbi cərəyanının formalaşmasına şərait yaradan mənbələr, axtarışlar, ənənələr funksiyasını yerinə yetirmişdir.

Azərbaycan şifahi xalq ədəbiyyatında və orta əsr klassik poeziyamızda müraciət olunan buta və məktub motivləri sentimentalizmin ilkin ədəbi qaynaqları hesab oluna bilər. Bu cəhətdən Şah İsmayıl Xətainin on məktub şəklində yazılmış "Dəhnamə" poeması xüsusi əhəmiyyətə malikdir. XIX əsrdə yaşayıb-yaratmış İsmayıl bəy Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" adlı sentimental-romantik üslubda qələmə alınmış hekayəsi, Xurşidbanu Natəvanın oğlunun vəfatından doğan qəmqüssəli şeirləri sentimentalizm ədəbi cərəyanının Azərbaycan ədəbiyyatında yaranmasına doğru gedən proseslərin inkişaf etdirilməsinə təsir göstərən mühüm amillərdir. Eyni zamanda, XIX əsr Azərbaycan təriqət ədəbiyyatındakı dini-hissi əhvali-ruhiyyənin tərənnümü də sentimentalizmin ideya-bədii təkamülünə zəmin hazırlamışdır. Azərbaycan ədəbiyyatında sentimentalizm ədəbi cərəyanının ilk tədqiqatçısı olan professor Hüseyn Həşimli haqlı olaraq XX əsrin əvvəllərində Ələkbər Qərib Abbasovun Nikolay Karamzinin "Bədbəxt Liza" romanını, Əbülfət Şahtaxtinskinin Getenin "Gənc Verterin iztirabları" poemasını Azərbaycan dilinə tərcümə edərək ədəbi ictimaiyyətə çatdırmalarını, türk ədəbiyyatında sentimentalizmin yaradıcısı Mahmud Əkrəm Rəcaizadənin əsərlərinin ölkəmizdə yayılmasını da bu ədəbi axının cərəyana çevrilməsinə təsir göstərən əhəmiyyətli faktorlar kimi qiymətləndirmişdir [6, s.10-11].

Dünya ədəbiyyatında olduğu kimi, Azərbaycan ədəbiyyatında da sentimentalizm ədəbi cərəyan olaraq kapitalizm cəmiyyətinin yaranması ilə meydana çıxmışdır. XIX əsrin ortalarından etibarən Azərbaycanda feodal münasibətlərinin dağılmağa başlaması ilə yaranan sentimental ədəbiyyat əlamətləri XX əsrin əvvəllərində ölkəmizdə kapitalizmin tam şəkildə bərqərar olmasından sonra genişlənərək, ədəbi cərəyan səviyyəsində inkişaf etmişdir. Xüsusən, "zaman keçdikcə kapitalist münasibətlərinin insana sosial-mənəvi azadlıqlar gətirəcəyinə bəslənilən ümidlər doğrulmadığından, sentimentalistlər burjua həyat tərzinin doğurduğu acı nəticələrə qarşı çıxmışlar" [6, s.10]. Bütün bunlar realist yazıçılarda tənqid notlarının güclənməsinə, romantiklərdə gerçəklikdən uzaqlaşaraq xəyalların qüvvətləndirilməsinə, sentimentalistlərdə isə hisslərin və iztirabların təsirli hadisələrlə geniş şəkildə təqdim edilməsinə meydan açmışdır. XX əsrin əvvəllərində mövcud cəmiyyət hadisələrinə münasibətdə hissləri və həyəcanları ədəbiyyatda ön mövqeyə çəkən yazıçı və şairlərin yaradıcılıq əlaqələri və birliyi sentimentalizm ədəbi cərəyanını yaratmışdır.

Cəmiyyətdə gedən ictimai-siyasi proseslərdən narazı qalan yazıçıların kəndə və təbiət mövzusuna üz tutmaları, qəhrəmanların özlərinin daxili azadlıqlarını real həyatda deyil, təbiətin qoynunda axtarıb tapmaları Azərbaycan sentimentalizminin əsas xüsusiyyətlərindəndir. Eyni zamanda, insan talelərindəki bədbəxtliklərin, nakam məhəbbətin, göz yaşlarının, qəlb çırpıntılarının, daxili tərəddüdlərin ədəbiyyatın əsas mövzusu səviyyəsinə qaldırılması da sentimentalizm ədəbi cərəyanına mənsub olan yazıçı və şairlərin fərqli simasını müəyyən edir. Azərbaycan ədəbiyyatında sentimentalizm ədəbi cərəyanını təmsil edən yazıçı və şairlərin yazdıqları bədii əsərlərdəki nakam məhəbbətin daşıyıcıları olan qəhrəmanlar özlərinin təmiz hissləri və düşüncələri ilə əsl insan sevgisinin təbiiliklərini cəmiyyətə təqdim edirlər. Beləliklə, sentimentalizm cərəyanı Azərbaycan ədəbiyyatına saf, pak, təbii hiss və həyəcanları ilə səciyyələnən insanların obrazlarını gətirmişdir. Ailə-məişət mövzu-

su da sentimental yazıçıların əsərləri vasitəsilə ədəbiyyatımızda özünə geniş yer almışdır. Çox hallarda vüsala çatmayan iztirablı sevgi motivləri də sentimentalistlərin yaradıcılığında geniş yer tutur. Bu, Azərbaycan klassik poeziyasında tərənnüm olunan sevgi motivlərinin XX əsrin əvvəllərindəki sentimental təzahürlərindən ibarət fərqli bir ədəbiyyatın meydana çıxması demək idi.

Digər ədəbi cərəyanlarda olduğu kimi, sentimentalizm ədəbi cərəyanı da Azərbaycan ədəbiyyatında özünəməxsus janrlarını doğurmuşdur. Professor Hüseyn Həşimlinin tədqiqatında "sentimental hekayə, povest, kiçikhəcmli romanların, qəlb çırpıntılarını daha geniş açmağa imkan verən epistolyar nəsr nümunələrinin, gündəlik və xatiratların, melodramların, mərsiyə, elegiya və s. lirik janrların sentimentalizmdə səciyyəvilik qazanması" [6, s.20] faktik ədəbi material əsasında elmi-nəzəri cəhətdən əsaslandırılmışdır. Azərbaycan sentimentalist ədəbiyyatında məktub, gündəlik, xatirə və mənsur şeir janrlarından yaradıcı şəkildə istifadə olunmuşdur. Beləliklə, sentimentalizm ədəbi cərəyanı Azərbaycan ədəbiyyatını fərqli janrlarla zənginləşdirmişdir.

Dünya ədəbiyyatında sentimentalizm müstəqil ədəbi cərəyan kimi XVIII əsirdə İngiltərədə yaranmışdır. Tanınmış ingilis yazıçısı L.Sternin "İtaliya və Fransaya sentimental səyahət" romanı (1748) bu ədəbi cərəyanın ilk bədii təzahürlərindən biri hesab olunur. Avropa ədəbiyyatında böyük fransız yazıçısı Jan Jak Russo (1712-1778) sentimentalizm ədəbi cərəyanının ən görkəmli nümayəndəsi kimi qəbul edilir [15, s.253]. Nikolay Karamzin (1766-1826) "rus ədəbiyyatında bu ədəbi cərəyana başçılıq etmiş yazıçı" [13, s.233] hesab olunur. Dünya ədəbiyyatında sentimentalizm "zəngin emosiyalar və göz yaşları və hissiyyatlar ədəbiyyatı" [12, s.557] kimi xarakterizə olunur.

Azərbaycan ədəbiyyatında sentimentalizm ədəbi cərəyanını təmsil edən yazıçı və şairlər Bakıda çıxan "Şəlalə" jurnalı və "İqbal" qəzetinin ətrafında birləşmişlər. Bu jurnal və qəzetin səhifələrində sentimental yazıçıların bədii əsərləri və məqalələri çap olunmuşdur. Eyni zamanda, vahid cəbhə əsasında cəmləşən şəlaləçilər mətbuatda müzakirələr açmış, özlərinin ədəbi mövqelərini bəyan və müdafiə etmişlər. Bir çox məqamlarda onlar ədəbiyyat məsələlərində romantiklərə yaxınlaşmışlar.

Azərbaycan ədəbiyyatında Abdulla bəy Divanbəyoğlu (1883-1936), İbrahim bəy Musabəyov (1880-1942), Əli Səbri Qasımov (1892-1983), Rza Zaki Lətifbəyov, Ələkbər Qərib Abbasov (1893 (1894)-?), Ağababa Yusifzadə (1886-1938), Nemət Bəsir (1889-1943), Bağır Cabbarzadə, Səkinə xanım Axundzadə (1865-1927), Umgülsüm (1900-1944) və başqaları sentimentalizm ədəbi cərəyanını təmsil edirlər. Abdulla bəy Divanbəyoğlu uzun müddət Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanına, İbrahim bəy Musabəyov isə maarifçi-realist ədəbiyyata aid edilmişdir. Bu, hər şeydən əvvəl, Azərbaycan ədəbiyyatşünaslıq elmində sentimentalizmin ədəbi cərəyan kimi tədqiq edilməməsi ilə əlaqədardır. Eyni zamanda, ədəbiyyatşünaslıqda sosialist realizmi yaradıcılıq metoduna mənsub sənətkar kimi təqdim olunan Cəfər Cabbarlının (1899-1934) ədəbi fəaliyyətinin birinci dövrü sentimentalizm mərhələsi kimi xarakterizə oluna bilər. Görkəmli yazıçı-dramaturqun "Vəfalı Səriyyə, yaxud göz yaşları içərisində gülüş", "Solğun çiçəklər" dramları, "Aslan və Fərhad", "Mənsur və Sitarə" hekayələri ədəbiyyatda sentimentalizmin mükəmməl örnəkləridir.

Abdulla bəy Divanbəyoğlunun "Can yanğısı" romanı, "Əbdül və Şahzadə" povesti, Cəfər Cabbarlının "Vəfalı Səriyyə" və "Solğun çiçəklər" dramları, İbrahim bəy Musabəyovun "Neft və milyonlar səltənətində", Əli Səbrinin "Solğun çiçək" romanları, Ələkbər Abbasovun "Qəlbimin sultanı" povesti Azərbaycan sentimentalizm ədəbiyyatının şedevrləridir.

Sentimentalizm ədəbi cərəyanında xüsusi mövqeyə malik olan Rza Zaki Lətifbəyov "Bədbəxt gəlin", "Köhnə Türkiyə", "Haqq yerini tapar", "Leyli və Məcnun" dramları, "Nigar və Neman", "Məhkəmeyi Kübra" opera librettoları, "Nakam qız", "Zavalı Cavad", "Fədai eşq" kimi nəsr əsərləri ilə bu yaradıcılıq istiqamətinin formalaşması və inkişafında böyük xidmət göstərmişdir [9]. Sentimentalizmin ədəbi cərəyan səviyyəsində inkişafında Ələkbər Qərib Abbasovun xüsusi xidmətləri olmuşdur. Qori Müəllimlər Seminariyasının məzunu olmuş Ələkbər Qərib Abbasovun "Qəlbimin sultanı" povesti Azərbaycan sentimentalizminə qiymətli ədəbi töhfədir. Onun "Uşaq divanı", "Mək-

təbli qız", "Bacı və qardaş" hekayələri sentimentalizmin özünəməxsus ideya-sənətkarlıq xüsusiyyətlərini yüksək bədii səviyyədə əks etdirən ədəbi nümunələrdir [7; 8]. Eyni tarixi dövrdə yaşayıb-yaratmış Ağababa Yusifzadənin "Həyatın qəhri altında, yaxud xainin sonu" və "Sınıq qanadlar" romanları, Nemət Bəsir Hacıyevin "İki nakam" Bağır Cabbarzadənin "Bir yetimin naləsi", Səkinə xanım Axundzadənin "Şahzadə Əbülfəz və Rəna xanım" romanları Azərbaycan ədəbiyyatında sentimentalizmin müstəqil ədəbi cərəyan kimi mövcud olduğunu nümayiş etdirən spesifik əsərlərdir. Əli Səbri Qasımovun 1912-ci ildə yazılmış "Şəbi-hicran, yaxud müsibəti-Şadi" povesti və 1913-cü ildə qələmə alınmış "Solğun çiçək" romanı Azərbaycan ədəbiyyatında sentimentalizmi daha da zənginləşdirən və bu ədəbi cərəyanın mövqeyini möhkəmləndirən dəyərli əsərlərdir. Umgülsümün şeirləri Azərbaycan sentimentalizmində poeziyanın da özünəməxsus mövqeyə malik olduğunu göstərir.

Azərbaycan ədəbiyyatında sentimentalizm sovet hakimiyyəti illərinə qədər ədəbi cərəyan kimi fəaliyyət göstərmişdir. Azərbaycan SSR-in yaranması ilə ədəbiyyatın inkişafında baş vermiş kəskin dəyişikliklər sentimentalizmin fəaliyyətinə son qoymuşdur. Cəfər Cabbarlının sentimental ruhlu əsərlərdən realist-romantik pyeslər yazmağa keçməsi, sentimentalizmi təmsil edən yazıçıların bir çoxunun sovet dövründə təqib edilmələri, İbrahim bəy Musabəyovun fəaliyyətini Azərbaycandan kənarda, Krımda davam etdirməsi sentimentalistlərin ədəbi cəbhəsinin dağılmasına səbəb olmuşdur. Beləliklə, sentimental yazıçıların yaradıcılıq əlaqələri və birliyi pozulmuşdur. Bütün bunlara görə, Azərbaycanda 1920-ci ilin aprel işğalı hadisəsinin baş verməsi sentimentalizm ədəbi cərəyanının fəaliyyətinə son qoyulması ilə nəticələnmişdir.

Azərbaycan ədəbiyyatşünaslıq elmində sentimentalizm ədəbi cərəyanı az öyrənilmişdir. Abdulla bəy Divanbəyoğlu və İbrahim bəy Musabəyovun həyatı və yaradıcılığı haqqında tədqiqat əsərləri yazılsa da, onlardan sentimentalizm cərəyanının nümayəndələri kimi söz açılmamışdır. İlk dəfə Hüseyn Həşimli 1998-ci ildə "Azərbaycan ədəbiyyatında sentimentalizm" mövzusunda nəzəri cəhətdən mühüm əhəmiyyətə malik olan dissertasiya müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

Hüseyn Həşimlinin dissertasiyasında Azərbaycan ədəbiyyatında sentimentalizm ədəbi cərəyanının yaranmasını şərtləndirən siyasi-tarixi və ədəbi amillər əsaslı şəkildə şərh olunmuş, bu ədəbi axının nəsr, poeziya və dramaturgiya üzrə ədəbiyyata gətirdiyi yeniliklər tədqiq edilib ümumiləşdirilmişdir [6]. Bundan əvvəl isə ali məktəblər üçün yazılmış dərslik [11, s.227-230] və dərs vəsaitlərində [5, s.50] Azərbaycan ədəbiyyatında sentimentalizm ədəbi cərəyanının mövcud olmasından söz açılmışdır. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslığında ədəbiyyatımızda sentimentalizm ədəbi cərəyanının varlığından, ideya-estetik prinsiplərindən, bu istiqamətdə meydana çıxmış əsərlərin özünəməxsusluğundan bəhs edilir [3, s.169-179; 4, s.291-295]. Yekun olaraq Azərbaycan ədəbiyyatşünaslıq elmi bu qərara gəlmişdir ki: "həm bu dissertasiya işi (H.Həşimlinin dissertasiyası – İ.H.), həm də adıçəkilən müəlliflərin əsərlərinə araşdırmaçı gözü ilə salınan nəzər sübut edir ki, Azərbaycan ədəbiyyatında sentimentalizm bir ədəbi cərəyan kimi mövcud olmuşdur" [3, s.178].

Azərbaycan ədəbiyyatşünaslıq elmində sentimentalizm haqqında uzun bir dövr ərzində çox az məlumat verildiyi, qəti fikir formalaşmadığı üçün ədəbiyyatımızda sentimentalizmin müstəqil ədəbi cərəyan olması bəyan edilməmişdir. Lakin Hüseyn Həşimlinin inamverici tədqiqatları və ondan sonra aparılan araşdırmalar, o cümlədən sentimentalizmə aid yazıçıların əsərlərinin nəşr edilməsi sentimentalizmdən ədəbi cərəyan kimi bəhs etməyə əsas verir. İlk dəfə olaraq AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun çap etdiyi "Azərbaycan ədəbiyyatı tarixi" oncildliyinin 2022-ci ildə "Elm" nəşriyyatında çıxmış VI cildində "Sentimentalizm" ayrıca fəsil kimi təqdim olunmuşdur. Bu cilddə "Azərbaycan ədəbiyyatında sentimentalizm" adlı nəzəri xarakterli giriş məqaləsi verilmiş, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında bu ədəbi cərəyanın mövcud olması elmi cəhətdən əsaslandırılmışdır. "Azərbaycan ədəbiyyatı tarixi"nin VI cildinin "Sentimentalizm"ə həsr olunmuş VI fəslində XX əsrin başlanğıc mərhələsində yaşayıb-yaratmış Abdulla bəy Divabəyoğlu (1883-1936), İbrahim bəy Musabəyov (1881-1936), Nemət Bəsir (1889-1942),

Ələkbər Qərib Abbasov (1893-1994-?), Əli Səbri Qasımov (1892-1983) haqqında portret-oçerklər şəxsiyyətində bəhs olunmuşdur [2, s.819-900]. Son illərdə aparılan tədqiqatlar və sentimentalizm ədəbi cərəyanında təmsil olunan digər yazıçı və şairlərin bədii əsərlərinin arxivlərdən üzə çıxarılaraq kitab halında nəşr edilməsi bu ədəbi cərəyan haqqında daha əsaslı şəkildə söz açmağa və portret-oçerklərin sayının artırılmasına imkan yaradır.

**Nəticə / *Conclusion***

Azərbaycan ədəbiyyatında sentimentalist əhvali-ruhiyyənin, hiss və həyəcanların bədii ifadəsi ənənəsi sonralar da yaşadılmışdır. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında da sentimental ovqatda yazılmış bədii əsərlər vardır. Xüsusən XX əsrin doxsanıncı illərində meydana çıxmış dekadentizm ədəbi cərəyanının nümayəndələri sentimental düşüncələrin təsvirinə və tərənnümünə daha çox müraciət etmişlər. Sentimentalizm ədəbi cərəyan kimi öz dövrünü çoxdan başa vursa da, ədəbiyyatda sentimental ənənənin yaşadılması davam etdirilməkdədir.

**Ədəbiyyat / *References***


1. Abbas Səhhət. Təzə şeir necə olmalıdır. Bakı, "Həyat" qəzeti, 1905, №14
2. Azərbaycan ədəbiyyatı tarixi, 10 cilddə,VI cild. Bakı, Elm, 2022, s.819-900
3. Ədəbiyyat nəzəriyyəsi: inkişaf mərhələləri və problemləri (kollektiv). Bakı, "Elmin inkişafı fondu", 2018, s.169-179;
4. Həbibbəyli İsa. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. Bakı, Elm, 2019, s.291-295
5. Həbibbəyli İsa. Ədəbiyyat nəzəriyyəsi (dərs vəsaiti) Bakı, ADPİ-nin nəşri, 1985, s.50
6. Həşimli Hüseyn. Azərbaycan ədəbiyyatında sentimentalizm (avtoreferat). Naxçıvan, 1998, s.10-11
7. Həşimli Hüseyn. Unudulmuş yazıçı Ələkbər Qərib Naxçıvanlı. Naxçıvan, Əcəmi, 2020.
8. Ələkbər Qərib. Haqqdivanı (çapa hazırlayanı və ön sözün müəllifi H.Həşimli, Naxçıvan, Əcəmi, 2020
9. Lətifbəyov Rza Zaki. Seçilmiş əsərləri. Bakı, Master kitab, 2025,216 s.
10. Məhəmməd Hadi. Aləmi-mətbuat və cəraidə bir nəzər. "Həyat" qəzeti, 13 yanvar 1906-cı il, №12
11. Mir Cəlal, Xəlilov Pənah. Ədəbiyyatşünaslığın əsasları. Bakı, Maarif, 1988, s.227-230
12. Бореев Юрий. Энциклопедия эстетики. Москва. Фонд Немаила Ахметова, 2015, с.557
13. Введение в литературоведение. Коллектив (пол общей редакции В.П.Мещеркова). Москва, Юрайт, 2018, с.233
14. Мещяряков В.П., Козлов А.С., Кубарева Н.П. Введение в литературоведение. Юрайт, 2018, с.235
15. Сорокин Васили. Теория литературы. Москва. Уч пергуз, 1960, с.253

# Сентиментализм как литературное течение
**(*Незабвенной памяти Гусейна Гашимли*)**

**Иса Габиббейли**
Академик
Президент Национальной Академии наук Азербайджана
E-mail: isa.habibbeyli@science.az

**Резюме.** В статье повествуется об одном из существующих в Азербайджане в начале XX века литературном течении сентиментализм. Так, долгое время он не считался самостоятельным литературным течением, а был известен как одно из стилевых направлений в рамках литературного течения романтизм. По мнению автора статьи, в азербайджанской литературе отсчёт литературного течения сентиментализм можно вести с 1906 года с представлением писателей и поэтов, пришедших различными путями в очень близкие друг другу романтизм и сентиментализм. До этого времени в различные столетия в нашу литературу явились произведения в сентиментальном духе, которые носили функцию источников, поисков, традиций, способствующих созданию условий для формирования литературного течения сентиментализм.

Обращение в азербайджанской устной народной литературе и средневековой классической поэзии к виду *бута* и эпистолярным мотивам можно считать первичным литературным источником сентиментализма.

В азербайджанской литературе литературное течение сентиментализм представляют Абдулла бек Диванбекоглу (1883–1936), Ибрагим бек Мусабеков (1880–1942), Али Сабри Гасымов (1892–1983), Рза Заки Лятифбеков, Алекбер Гариб Аббасов (1893/4–?), Агабаба Юсифзаде (1886–1938), Немат Басир (1889–1943), Багир Джаббарзаде, Сакина-ханум Ахундзаде (1865–1927), Умгульсум (1900–1944) и др.

**Ключевые слова:** азербайджанская литература, сентиментализм, литературное течение, писатели и поэты